# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

8 avqust 2019-cu il

Cümə axşamı

№ 30 (3445)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# AZƏRBAYCAN SABİTLİK VƏ İNKİŞAF YOLU İLƏ GEDİR

İyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirilib.

Bu gün istər regionda, istərsə də qlobal iqtisadiyyatda baş verən proseslərə baxmayaraq, Azərbaycanın bütün sahələr üzrə tərəqqisi fərəh doğurur. Hər gün atılan addımlar uğurlu nəticələr verir. Möhtərəm dövlət başçımız müşavirədə çıxış edərkən məhz bu uğurları dəyərləndirib və qarşıdakı hədəfləri müəyyənləşdirib.

Qeyd olunub ki, bu ilin 6 ayında reallığa çevrilən islahatların uğurları onu deməyə əsas verir ki, müəyyən edilən hədəflərə doğru inamlı addımlar davam edir. Son 6 ayda ölkə iqtisadiyyatı 2,4, qeyri-neft sektoru 3,2 , qeyri-neft sənayesi 15,7, kənd təsərrüfatı 13, ticarət dövriyyəsi 20, qeyri-neft ixracı 15, əhalinin gəlirləri 6,6 faiz artıb, valyuta ehtiyatları 4 milyard artaraq 49 milyard dollara yüksəlib, iqtisadiyyata 6 milyard dollardan çox sərmayə qoyulub, sahibkarlara 50 milyon manatadək güzəştli kredit ayrılıb, büdcə daxilolmaları 440 milyon manatdan çox artıb, minimum əməkhaqqı 130 manatdan 250 manata çatdırılıb, pensiya 116 manatdan 200 manata qaldırılıb, məcburi köçkünlərə verilən müavinət 50 faiz artıb, problemli kreditlərlə bağlı olan məsələ həllini tapıb, 400 kilometrə yaxın avtomobil yolu çəkilib, "SOCAR karbamid" zavodu açılıb və "SOCAR Polymer"in yüksəksıxlıqlı polietilen zavodu işə düşüb.

Göründüyü kimi, bu davamlı inkişaf ilin əvvəlində qarşıya qoyulan vəzifələrin uğurlu icrasının təsdiqidir. Ölkədə ümumi iqtisadi vəziyyət çox müsbətdir və bu, özünü rəqəmlərdə də əks etdirir.

Bütün bunlar Azərbaycanın sosial-iqtisadi inkişafının əsas göstəriciləridir. Prezident İlham Əliyevin söylədiyi kimi, bütün iqtisadi göstəricilər, uğurlu nəticələr onu deməyə əsas verir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir və qarşıda duran bütün vəzifələr icra olunur. Əgər ölkənin güclü iqtisadi imkanları olmasaydı, bu layihələrin heç biri reallaşmazdı. Hələ heç bir sosial layihə indiyədək təxirə salınmayıb. Çünki Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil.



Bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı, fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü olan güclü dövlətdir.

İqtisadi baxımdan son illərdə Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Prezident İlham Əliyevin innovasiya yönümlü, yüksək rəqabətqabiliyyətli istehsala əsaslanan sosial-iqtisadi siyasəti Azərbaycan iqtisadiyyatını keyfiyyətcə yeni, daha yüksək mərhələyə çıxarıb və respublikamız dünyanın iqtisadi cəhətdən dinamik inkişaf edən ölkəsi imicini qazanıb. Təkcə 6 ayda valyuta ehtiyatlarımızın 4 milyard dollar artması bunu təsdiq edən faktdır.

Bu sahədə, əlbəttə ki, cari ildə istifadəyə verilmiş iri müəssisələrin rolu kifayət qədər böyükdür. Bu ilin əvvəlində Sumqayıtda "SOCAR Polymer"in yüksəksıxlıqlı polietilen və "SOCAR karbamid" zavodlarının istifadəyə verilməsi də bu uğurlar sırasındadır. Ümumiyyətlə, bu gün regionlarda yaradılan 9 sənaye parkı və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident artıq fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən artıq 5,7 milyard manatı faktiki olaraq qoyulub və bu layihələrin yerinə yetirilməsi nəticəsində 11 mindən çox yeni iş yeri açılıb. Eyni zamanda bu layihələrin fəaliyyəti nəticəsində artıq 1,5 milyard manatlıq məhsul istehsal olunub ki, onun da 300 milyon manatlıq hissəsi ixraca yönəlib.

Bu il eyni zamanda Hacıqabul və Sabirabad sənaye məhəllələrinin açılışları da nəzərdə tutulub. Bu isə ölkədə kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi addımların atıldığının təsdiqidir.

Prezident müşavirədə böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı fərman və sərəncamlardan söz açaraq vurğulayıb ki, bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir: "Biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində bu məsələləri həll edirik".

Xatırladaq ki, dövlət başçısının sərəncamlarına əsasən qəbul edilən iki böyük sosial islahat paketi xalqın rifah halının yaxşılaşdırılması istiqamətində atılan mühüm addımdır. Birinci paket 3 milyon insanı əhatə etdi və ümumi illik maliyyə tələbi 1,6 milyard manata bərabər idi. Bu sosial islahat paketi artıq tam şəkildə icra olunub və həm pensiyaçılar, həm də işləyən vətəndaşların əməkhaqları artıb.

*Ardı 2-ci səhifədə.*

# XXXI BEYNƏLXALQ İNFORMATİKA OLİMPİADASININ İŞTİRAKÇILARINA

Hörmətli olimpiada iştirakçıları, əziz məktəblilər.

Sizi – dünyanın müxtəlif guşələrindən Bakıya toplaşmış XXXI Beynəlxalq informatika olimpiadasının iştirakçılarını səmimi qəlbdən salamlayır, hamınıza uğurlar arzu edirəm. Ümidvaram ki, olimpiada informatika sahəsində yeni istedadların üzə çıxarılması, gənclərin informatikaya marağının daha da güclənməsi və təmsilçi ölkələrin sıralarının genişlənməsi işinə öz töhfəsini verəcəkdir.

Biliklərə əsaslanan cəmiyyətin formalaşdığı və rəqəmsal bacarıqların son dərəcə zəruri olduğu indiki dövrdə informasiya-kommunikasiya texnologiyaları elmi potensialın vacib göstəricilərindən birinə çevrilmişdir. İnformatika iqtisadiyyatda, elmdə və cəmiyyət həyatında böyük əhəmiyyətə malikdir. Dünya informasiya şəbəkəsinin yaradılması isə kompüter biliklərinin rolunu xeyli artırmışdır.

Beynəlxalq informatika olimpiadası bu baxımdan qarşınızda yeni üfüqlər açır. Kompüter elmləri üzrə ən mötəbər müsabiqələr arasında özünəməxsus yer tutan bu bilik yarışı arzularınızın gerçəkləşməsi və həyat yolunuzun müəyyənləşməsinə, əlbəttə, ciddi təsir göstərəcəkdir.

Hazırkı olimpiadanın Azərbaycanda təşkili təsadüfi deyildir. Belə ki, informasiya cəmiyyətinin qurulması istiqamətində mühüm addımlar atan ölkəmizdə məktəblilər arasında olimpiada hərəkatı ildən-ilə geniş vüsət almaqdadır. Məktəblilərimiz beynəlxalq olimpiadalarda öz müvəffəqiyyətlərinin davamlı inkişafına nail olaraq, son illər ərzində ümumilikdə yüz altmış medal qazanmışlar.

Bu olimpiada günlərində siz, eyni zamanda, Azərbaycanın keçmişi, bu günü və zəngin tarixi-mədəni dəyərləri ilə yaxından tanış olmaq, eləcə də yeni-yeni dostlar tapmaq imkanı əldə edəcəksiniz. Olimpiadanın uzun illər hər birinizin yaddaşında xoş xatirə kimi qalacağına əminəm.

İnanıram ki, sizə bəslənən ümidləri gələcək fəaliyyətinizdə layiqincə doğruldacaqsınız.

Hörmətlə,

***Mehriban Əliyeva,***
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti***

*Bakı şəhəri, 5 avqust 2019-cu il.*

**Azərbaycan Prezidenti İlham Əliyev iyulun 31-də Azərbaycan kino xadimlərinin mükafatlandırılması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı iyulun 31-də Vilayət Məmməd oğlu Vəliyevin Azərbaycan Texniki Universitetinin, Şahin Vaqif oğlu Bayramovun Mingəçevir Dövlət Universitetinin rektoru təyin edilmələri haqqında sərəncamlar imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri avqustun 1-də Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Hacı Murad Hacı Əhməd oğlu Yagizarovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Avqustun 1-də Azərbaycan Prezidenti İlham Əliyev UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Bakıda təşkili və keçirilməsində fəal iştirak etmiş şəxslərin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Avqustun 1-də dövlətimizin başçısı Azərbaycan Respublikasında əmlak məsələləri sahəsində dövlət idarəetməsinin təşkilində səmərəli fəaliyyətinə görə Kərəm Əvəz oğlu Həsənovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev avqustun 2-də Oman Sultanlığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasim Məhəmməd Salim Al Salhinin etimadnaməsini qəbul edib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı avqustun 2-də Laos Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sivienqxpet Pxetvorasakın etimadnaməsini qəbul edib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri avqustun 5-də Texas, Ohayo və İllinoys ştatlarında törədilmiş silahlı hücumlar nəticəsində insan tələfatı ilə əlaqədar Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Donald Trampa başsağlığı teleqramı göndərib.***

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov 2019-cu il avqust ayının 31-də Şəki Şəhər-Rayon Polis Şöbəsində Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# QƏLƏBƏ... ŞƏHİDLƏRİN VƏ ŞAHİDLƏRİN ARZUSU

Üç il bundan öncəki aprel qələbə soraqlı idi. Ümidimizə söykək oldu və gediləcək yolun çox da uzaq, çətin, keçilməz olmadığını bizə göstərdi. Millət o zaman yenilməz olur ki, sahib olduğu torpağın uğrunda son damla qanınadək vuruşub, qalib gəlir.

Bu gün nəinki paytaxtımızda, ölkəmizin digər şəhər və rayonlarında da günün istənilən vaxtında parkları, xiyabanları tarixi yerləri gəzib dolana bilirik. Bütün bunlar isə ölkəmizdə həyata keçirilən uğurlu siyasətin, islahatların nəticəsidir. Sabitliyimiz bizim həm də ən böyük sərvətimizdir...

*Bax səh.2.*

# AZƏRBAYCAN SABİTLİK VƏ İNKİŞAF YOLU İLƏ GEDİR

*Əvvəli 1-ci səhifədə.*

İkinci sosial paketlə bağlı hazırlıq işləri artıq yekunlaşıb və sentyabr ayının 1-dən etibarən minimum əməkhaqqının 250 manata çatdırılması, dövlət sektorunda çalışan əlavə 400 min insanın kateqoriyalarından asılı olaraq 20-50 faiz aralığında əməkhaqqlarının artırılması, eyni zamanda oktyabrın 1-dən etibarən 750 min pensiyaçının pensiyasının artırılması ilə bağlı bütün hazırlıq işləri başa çatıb. Ümumilikdə hər iki paketin ümumi dəyəri cari il üçün 2,3 milyard manatdır, növbəti il üçün 3 milyard manat və 4,2 milyon insanı əhatə edəcəkdir. Minimum pensiyada 72 faizlik artım nəticəsində Azərbaycanda minimum pensiya MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci göstərici olacaq.

Ölkə rəhbəri həmçinin ilin əvvəlində qəbul edilən regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü dövlət proqramının icrası prosesinə də toxunaraq vurğulayıb ki, bu günə qədər həllini tapmayan məsələlər genişmiqyaslı proqramın icrası nəticəsində öz həllini tapacaq. Bununla yanaşı həm kompleksi tikiləcək, sahibkarlara 120 milyon manat həcmində güzəştli kredit veriləcək. Digər sosial infrastruktur layihələrinin icrası ilə bağlı konkret proqramlar, planlar var və bunların hamısı Dövlət İnvestisiya Proqramında öz əksini tapır.

Azərbaycanın innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişaf etməli olduğunu vurğulayan cənab İlham Əliyev bəyan edib ki, biznes mühitinin yaxşılaşdırılması istiqamətində






aparılan işlər bu gün iqtisadi sahədə Azərbaycanın dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasında olduğunu bir daha təsdiqləyir. Ancaq dövlət bununla paralel olaraq, sosial sahəyə də çox böyük diqqət göstərir. Reallaşan, yəni milyardlarla dollar həcmində ölçülən bu layihələr dövlət siyasətinin göstəricisidir: "Bu təşəbbüslər bizim niyyətimizi, bizim siyasətimizi göstərir. Göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.



elektrik enerjisi ilə təchizat, qazlaşdırma, içməli su sahələrində, həm də suvarma layihələrinin icrası istiqamətində bir çox işlər görülüb və uğurlu nəticələr var. Dövlət İnvestisiya Proqramında nəzərdə tutulan vəsaitlərin böyük hissəsi, ilk növbədə, bu proqramın əsas istiqaməti olan infrastruktur layihələrinin icrasına yönəldilib. Həmçinin dövlət proqramının icrası kənd yerlərini də əhatə etməklə məşğulluğun təmin olunması istiqamətində atılan vacib addımlardan biridir. Bu gün regionlarda yaradılan biznes mühiti, kənd təsərrüfatı və sənayenin inkişafı üçün infrastruktur artıq öz bəhrəsini verməkdədir və bölgələrdə məşğulluğun təmin olunmasında əsas rol oynayır.

Cari ildə reallaşacaq layihələrə gəlincə isə dövlət başçısı bəyan edib ki, ilin sonunadək 10 min ailənin bu il Özünüməşğulluq Proqramı ilə əhatə edilməsi planlaşdırılır. Bundan başqa, bu il bir neçə şəhərin içməli su problemi həll olunacaq, 10 şəhərdə mərkəzi xəstəxana, 3 şəhərdə olimpiya idman Bizim iqtisadi gücümüz sosial sahəyə bilavasitə təsir etməlidir və edir. Biz bundan sonra da bu yolla gedəcəyik. Əminəm ki, ilin sonuna qədər nəzərdə tutulan bütün vəzifələr icra ediləcəkdir".

Əldə edilən bu nailiyyətlər və reallaşmaqda olan yeni-yeni sosial-iqtisadi layihələr onu deməyə əsas verir ki, 2019-cu ildə də qarşıya qoyulan bütün vəzifələr uğurla icra ediləcək, Azərbaycan iqtisadiyyatı öz inkişaf dinamikasını qoruyub saxlayacaq.

# XOŞ OVQATLAR ÜNVANI "XƏZRİ"

**Qızmar yay günlərində nəfəskəsən istilərdə çimərliklər tez-tez yada düşür. Yay mövsümündə ecazkar təbiət, mülayim dəniz və təmiz hava turistləri Azərbaycana cəlb edir. Xəzərin sahilboyu ərazilərində, meşələrdə və dağlarda yerləşən istirahət və əyləncə məkanları günəşi, dənizi və qumu, təbiətin qoynunda seyrə çıxmağı, ağacların arasında cığırlarda gəzməyi sevənlərə unudulmaz anlar yaşadır.**

Yay fəsli Azərbaycanın hər yerində səyahət üçün əlverişlidir. İstirahət və müalicə üçün imkanlar burada hər kəsə öz istirahətini ürəyincə keçirməyə şərait yaradır. İndi ölkəmizə təyyarə, qatar və ya avtomobil yolu ilə gələn turistlərlə birgə, velosipedlə gələnlərin də sayı artır.



Turistlər üçün əlverişli məkanlardan biri də DİN-in "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzidir. "Xəzri"nin səsi-sorağı artıq ölkəmizin hüdudlarından gəlir. Kiçik bir araşdırma aparıb məlumat əldə etdik ki, Rusiya, Polşa, Latviya, Estoniya və digər ölkələrdən səyahəti sevən insanlar yollarını "Xəzri"yə yayda olduğu kimi qışda da salırlar.

Bu günlərdə redaksiyamıza ünvanlanan təşəkkür məktubunda yazılan xoş sözlər könlümüzü oxşadı. **Taras Şevçenko adına Kiyev Milli Universitetin professoru Rita Zabloskaya** ailəsilə birlikdə dincəlmək üçün "Xəzri"yə gəlib. O, mərkəzin səliqə-sahmanı, otaqların, hovuzun təmizliyi, xidmətin səviyyəsini, qəbul etdikləri tibbi prosedurların yüksək səviyyədə təsirinin onlarda çox gözəl təəssürat yaratdığını qeyd edir, buna görə DİN rəhbərliyinə minnətdarlığını bildirir.

**Ukrayna vətəndaşı Alla Karablyova** da DİN-ə ünvanladığı məktubunda şəhərimizin gözəlliyinə heyran qaldığını, "Xəzri"də ona göstərilən qonaqpərvərlikdən, mətbəxinin dadlı yeməklərindən, orada xidmət göstərən əməkdaşların mehriban və xoş rəftarından məmnun olduğunu bildirir və təşəkkür edir.

Sevinməyə və qürur duymağa dəyər. Çünki Vətənimizə üz tutanlar xoş ovqatla, xoş xatirələrlə bir də qayıtmaq həvəsi ilə ayrılırlar.

***Ruhiyyə Əliyeva,***
***polis baş leytenantı***

# SABİTLİK SƏRVƏTİMİZDİR: QORUYAQ Kİ...

**Bu gün nəinki paytaxtımızda, ölkəmizin digər şəhər və rayonlarında da günün istənilən vaxtında parkları, xiyabanları tarixi yerləri gəzib dolana bilirik. Bütün bunlar isə ölkəmizdə həyata keçirilən uğurlu siyasətin, islahatların nəticəsidir. Sabitliyimiz bizim həm də ən böyük sərvətimizdir. Dost üçün Vətənimizin də, gözümüzün, könlümüzün qapıları hər zaman açıqdır. Şair demiş: "Cənnət görmək istəyən Azərbaycana gəlsin".**

Bu yaxınlarda Almaniyadan qonaqlarım gəlmişdi. Bakının qədim tarixini yaşadan məkanlarını, dənizkənarı Milli parkı seyr etdilər. Dünyanın bir çox ölkələrinə, şəhərlərinə səyahət etdiklərini, lakin heç bir yerdə Bakıda olduğu qədər gözəl bulvar görmədiklərini dedilər. Onları ən çox təəccübləndirən həm də şəhərimizdə olan sakitlik, sabitlik və əmin-amanlıq idi. Alman dostlarımız gecə saatlarında şəhərə gəzməyə çıxanda Bakı gecələrinin gözəlliyinə və bir də polisin öz xidməti borcunu müasir tələblər səviyyəsində yerinə yetirməsinə heyran olmuşdular. Deyirdilər ki, biz heç yerdə özümüzü belə təhlükəsiz hiss eləməmişik. Gecənin istənilən saatında şəhərə çıxmışıq, kafe və restoranlarda şam etmişik, gəzmişik, çoxlu video və fotolar çəkdirmişik, heç kim, heç kəs bizi narahat eləməyib. Biz ölkəmizə qayıdandan sonra Azərbaycandakı və Bakıdakı bu sabitlikdən və rahatlıqdan dostlarımıza danışacağıq. Deyəcəyik ki, gedin, görün Azərbaycanda gecə saatlarında insanların rahatlığı və təhlükəsizliyi necə təmin olunur. Buna görə biz polislərə minnətdarıq.

Sözün düzü, alman dostlarımdan bu razılığı eşidəndə sevincimdən ürəyim köksümə sığmadı. Mən 32 il daxili işlər orqanlarında məsul vəzifələrdə xidmət etmişəm və polis polkovnik-leytenantı rütbəsilə təqaüdə çıxmışam...

Xalqın təhlükəsizliyini təmin etmək və onu qorumaq çox şərəfli və məsuliyyətli işdir. Əgər əcnəbilər Azərbaycandakı sabitliyə görə polisə belə qiymət verirlərsə, bizim özümüz də Azərbaycan polisinin adını həmişə uca tutmalı, ona hörmətlə yanaşmalıyıq.

***Azər Əsədov,***
***təqaüddə olan polis polkovnik-leytenantı***

# MƏNƏVİ UCALIQ...

**Rəhim Rəhimov adlı sosial şəbəkə istifadəçisinin yazdığı: "Bu gün anamla Bakıya gedirdim. Maşını yolun kənarına çəkdim, altı dəydi, usta tapıb düzəltdirdim. Ciddi bir iş yox idi, xamut çıxmışdı, ancaq benzin çox axdı və yanacaqdoldurma məntəqəsinə çatmamış qurtardı. "Navahı" postunun Tural adlı polis baş serjantı öz maşını ilə gedib mənə təmənnasız benzin alıb gətirdi. Benzini maşına tökdü və məni yola saldı..."**

Avqustun 4-də Sədərək ticarət mərkəzində baş vermiş yanğın zamanı da DİN əməkdaşları əsl qəhrəmanlıq nümayiş etdirdilər. Onlar ölümlərini gözə alaraq yanğından zəhərlənmiş şəxslərin həyatlarını xilas etdilər. Hətta yanğında zərər görmüş vətəndaşların anbardakı mallarının daşınmasında da yaxından köməklik göstərdilər. Bu bir daha Azərbaycan Polisinin andına sadiqliyinin bariz nümunəsidir.

Maraqlıdır. Saatlarla sosial şəbəkələrdə oturub onun-bunun sifarişi ilə Azərbaycan Polisinin fədakar xidmətinə, adına, nüfuzuna qarayaxanlar, xələl gətirmək istəyənlər nə üçünsə polisin xeyirxah, nəcib








əməlini görəndə itirlər, yoxa çıxırlar. Yaxud da, buna kölgə salmaq üçün tutarlı söz tapmayıb, atmacalar yazırlar. Niyə? Səbəb nədir? Məgər, sən bu Vətənin övladı deyilsən? Sözüm polis əməkdaşlarının bu mənəvi ucalığını, insanlıq nümunələrini görməzdən gəlib dilə gətirmək istəməyən vicdanını özgələrinə satan "özümüzkülərədir". Belələrinə nə ad vermək olar? Bu yerdə görkəmli şair, dramaturq, tərcüməçi Abbas Səhhətin "Vətən" şeirinin son iki misrası yadıma düşdü.

***Vətəni sevməyən insan olmaz,***
***Olsa, ol şəxsdə vicdan olmaz.***

Deməli, bu adamların ya vicdanı yoxdu, ya da Vətəninin hara olduğu bəlli deyil.

***Teymur Əlizadə,***
***polis kapitanı***

# QƏLƏBƏ... ŞƏHİDLƏRİN VƏ ŞAHİDLƏRİN ARZUSU

**Torpağa çadırlar əkiləndə orta məktəbdə oxuyurdum. Vətəni çadırlara köçürmüşdülər. Yurdundan, yuvasından pələsəng düşən ellər çadırlara pənah gətirmişdi. Sığınacaq idi, duracaq idi, daldalanacaq idi onlar. Dərdimiz kimi çadırların da kökü torpağın dərinliyinə işləyirdi. Bir çadırlıq, bir qəbirlik yeri vardı insanların. Hələ o zaman Aqil Abbas haqlı yazmışdı: "Çadırda Üzeyir bəy doğula bilməz"...**

Yazda yarpaqlayır, yayda qır kimi qaynayır, payızda yetimləşir, qışda kövrəkləşir, tənhalaşırdı çadırlar. Çadır dənizinin sakinləri idi yerlər, göylər. Bir ata qoluydu, bir ana qucağıydı bu çadırlar. Üstündə ayparası da vardı, xaçı da. Dünyanın işinə baxın: torpağından zorla qovulanlara dinin simvollarını daşıyan, dünyaya sülh, əmin-amanlıq arzulayan təşkilatlar sahib çıxmaq, onları az da olsa ovundurmaq istəyirdilər.

Nolardı ayparanı da, xaçı da sülh, dostluq rəmzi bilənlər vaxtında görəydilər bu dəhşətləri, vaxtında qarşısını alaydılar bu tökülən qanların. Vaxtında...

O zaman elə düşünürdüm ki, çadırda yaşayanların ömrü də çadır kimi bu dünyadan köçürülüb o dünyada qurulur. İllər keçdikcə o çadırların yanında toy çadırları da quruldu, yas çadırları da...

***Hələ neçə ildi qalıb yerində,***
***Hələ neçə ildi kökü dərində***
***Çiçək də açacaq günün birində,***
***Ay Allah, bu çadır göyərir deyən.***

Xalqımızın günü o zaman göy əsgiyə büküldü ki, gur səsinin ahəngindən Kremlin divarları əsim-əsim əsən bir ər oğlu, bir Vətən sevdalı azərbaycanlını qara əllər yollarında tək və son bir maneə kimi görüb ona quyu qazdılar, ona qara yaxdılar. Ürəyini paralasalar da vüqarını, əzmini qıra bilmədilər. Məqsəd də bəlli idi, məram da. İrəvanı, Borçalını, Dərbəndi, Təbrizi bizdən alıb ürəyimizə xal salanlar, düyünü bu günə kimi çözülməyən böyük bir problemlə bizi üzbəüz qoymaq istəyirdilər. Məhz onun, bu gün adını saygı və rəhmət hissi ilə andığımız ulu



öndərin qətiyyətinin qarşısında istəklərinə nail olmayacaqlarını bilən "yenidənqurma" ovçuları Azərbaycanı daxildəki davamçılarının öhdəsinə buraxdılar.

İdarəçilik sükanının arxasına keçənlər oynanılan oyunlardan, böyük siyasətdən xəbərsiz idilər. Asta və usta tərpənən, "Parçala və hökm sür" ideyası ilə ölkələri rəzil, dilənçi gününə salanların zurnasına zuy tutanlar isə dünən olduğu kimi, bu gün də tutduqlarını buraxmayan, uğurlarımızı görməzlikdən gələn korlar idi.

Canı çadırda, ürəyi Şuşada, Laçında, Kəlbəcərdə, Xocalıda olanların, bir sözlə, bütün Azərbaycan xalqının ümidi yalnız O idi. Ev-ev, çadır-çadır, kənd-kənd, şəhər-şəhər hər kəs onu səsləyirdi, hamının dilində bircə nida vardı: "Heydər baba, xalqı bu bəladan qurtar"...

Dünya bu xalqın dərdini ilk dəfə onun dilindən eşitdi. Həqiqətlər, gerçəklər ölkə-ölkə ayaq açdı, okeanın o tayında Azərbaycan deyiləndə təkcə neft ölkəsi yada düşmədi, həm də bir milyondan çox qaçqını, məcburi köçkünü, erməni təcavüzündən əziyyət çəkən bir ölkə canlandı gözlər önündə.

"Əsrin müqaviləsi"ndən sonra çadırların da üzünə gün düşdü, qara bəxti ağarmağa başladı. Və illər keçdi, adı qaldı o çadırların. Bu gün onların ilk salındığı yerlərdə qəsəbələr salınıb, yaşayış üçün hər cür şərait yaradılıb.

"Qızıldan çadır olsun, bircə qarış Vətən torpağında, ata yurdunda qurulan dəyənin yerini verməz",- deyənlər Horadizə quş qanadında getdilər. Sonra daha böyük köçümüz başladı. Cocuq Mərcanlı həsrətin, hicranın göynərtisinə, acısına elə bir məlhəm qoydu ki, onu yalnız yurd itirənlər və sonra yurda dönənlər yaxşı bilərlər.

Üç il bundan öncəki aprel qələbə soraqlı idi. Ümidimizə söykək oldu və gediləcək yolun çox da uzaq, çətin, keçilməz olmadığını bizə göstərdi. Millət o zaman yenilməz olur ki, sahib olduğu torpağın uğrunda son damla qanınadək vuruşub, qalib gəlir.

Bu gün hər birimiz qələbə ab-havalıyıq. Bu gün inkişafı, sabitliyi dünyaya örnək, adı gələndə, bayrağı ucalanda dostlarının sevindiyi Azərbaycan adlı günəşin doğması dünyanın harasından baxsaq görünür. Bax elə bu ovqatda bizə qələbə yaraşır. İdman arenalarında qazandığımız qələbələri döyüş meydanlarında da qazanmağa gücümüz, təpərəmiz, onu bizə qazandıracaq ordumuz və liderimiz var.

Və bəlkə də illər öncə çadırlarda doğulan həmkarlarım, əsgər qardaşlarım bunu yəqin ki, oxuyacaqlar. Oxusunlar və bilsinlər ki, hər birimiz o günü-şəhidlərin və şahidlərin arzuladığı Qələbə gününü gözləyirik:

***Ya ölüm, ya olum, ya da ki, heç nə,***
***Dur! deyəm gözümün yaşına bir gün.***
***Sancam ürəyimi bayraq yerinə,***
***Şuşa qalasının başına bir gün...***

***Hafiz Təmirov,***
***polis mayoru***

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ BAŞ ƏMƏLİYYAT VƏ STATİSTİK İNFORMASİYA İDARƏSİNİN TABELİYİNDƏ OLAN ORQANLARDA VAKANT KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Bakı şəhərinin 6 saylı, o cümlədən respublikanın Tovuz, Şamaxı, Balakən, Kürdəmir və Ağcabədi "ASAN xidmət" mərkəzlərinin hər birində 4, ümumilikdə 24 vakant yer tutmaq məqsədi ilə keçirilən müsabiqədə orta, xüsusi orta və ali təhsil müəssisələrini bitirmiş, yaşı 20-dən 25-dək, boyu 160 (qadınlar), 170 (kişilər) santimetrdən yuxarı olan özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, yaşayış yeri üzrə Bakı, Tovuz, Şamaxı, Balakən, Kürdəmir və Ağcabədi şəhərlərində və ətraf rayonlarında daimi qeydiyyatda olan vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaq. Müsabiqədə ali təhsillilərə, kompüterlə işləmək qabiliyyətinə malik olan və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcək.

Müsabiqə qalibləri müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaq.

Xidmətə qəbul olunmaq istəyən şəxslər 2019-cu ilin iyul ayının 18-dən avqust ayının 18-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri Nizami rayonu Məhsəti küçəsi 160-da yerləşən Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinə bilavasitə tabe olan Arxiv-uçot şöbəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-Şəxsiyyət vəsiqəsi*
*-Təhsil haqqında sənədin əsli*
*-Hərbi bilet (kişilər üçün)*
*-əmək kitabçası (olanlar üçün)*
**Əlavə məlumat üçün əlaqə telefonu: (012) 570-70-80;**

*Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi*

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ BAŞ PASPORT, QEYDİYYAT VƏ MİQRASİYA İDARƏSİNİN TABELİYİNDƏ OLAN ORQANLARDA VAKANT KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Bakı şəhərinin 6 saylı (30), o cümlədən respublikanın Tovuz (22), Balakən (18), Ağcabədi (18), Kürdəmir (18) və Şamaxı (18) "ASAN xidmət" mərkəzlərində ümumilikdə 124 vakant yer tutmaq məqsədi ilə keçirilən müsabiqədə orta, xüsusi orta və ali təhsil müəssisələrini bitirmiş, yaşı 20-dən 25-dək, boyu 160 santimetrdən yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, yaşayış yeri üzrə Bakı şəhərində, Tovuz, Balakən, Ağcabədi, Kürdəmir, Şamaxı və ətraf rayonlarında daimi qeydiyyatda olan qadın vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaq. Müsabiqədə ali təhsillilərə, kompüterlə işləmək qabiliyyətinə malik olan və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcək.

Müsabiqə qalibləri müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaq.

Xidmətə qəbul olunmaq istəyən şəxslər 2019-cu il iyul ayının 25-dən avqust ayının 25-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri R.Behbudov küçəsi 130-da yerləşən Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-Şəxsiyyət vəsiqəsi*
*-Təhsil haqqında sənədin əsli*
*-əmək kitabçası (olanlar üçün)*
**Əlavə məlumat üçün əlaqə telefonu: (012) 590-64-41; (012) 590-64-31 (312) daxili**

*Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsi*

## RESPUBLİKA BAŞ PROKURORLUĞU VƏ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində qeyri-aşkar şəraitdə törədilmiş qətlin üstü "isti izlər"lə açılıb.

Belə ki, iyulun 22-də Gədəbəy rayon sakini, 1959-cu il təvəllüdlü Kamil İmamquliyevin üzərində zorakılıq əlamətləri olan meyitinin ailə üzvləri tərəfindən aşkar edilməsi faktı ilə bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətin Ağstafa rayon sakini, 1980-cı il təvəllüdlü Anar Nuriyev tərəfindən törədilməsinə kifayət qədər əsaslı şübhələr olduğundan barəsində axtarış elan edilib.

Aparılmış əməliyyat-axtarış tədbirləri nəticəsində A.Nuriyev avqustun 1-i Ağstafa rayonu ərazisində tutularaq istintaqa cəlb olunub.

A.Nuriyev şübhəli şəxs qismində saxlanılaraq dindirilib və o, ilkin ifadəsində törətdiyi cinayət əməlini tam etiraf edib.

Hazırda cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

*2 avqust 2019-cu il.*

**O, çoxuşaqlı ailədə böyüyüb. Özündən böyük 15 bacı və qardaşı var. Bu gün hər biri oğul-uşaq sahibidir, hətta çoxu babadır, nənədir. Sonuncu deportasiyadan sonra doğulduğu ata-baba ocağından təkbaşına deyil, 16 uşaqla çıxan, yurddan-yurda pələsəng olan, çətinliklərə sinə gərən bir ailənin yaşam mücadiləsinin filmlərə mövzu olacaq həyat hekayəsi var. Hümbətovlar ocağının iki od yandıranını-Abbasqulu kişini və Ceyran ananı yaxından tanıyırdım. Bu gün haqq dünyasındadırlar. Onların alın qırışları da qəribə idi. On altı uşağın sevinci, qayğısı yurd salmışdı o qırışlarda. Və əlbəttə ki, itirilən yurd ağrısı...**

Dağ adamlarının duruluğunu gözlərinə baxanda görmək olur...

Əlindən və əməlindən kiməsə ziyan gəlməyən övlad böyütmək, əslində, valideynin ən böyük qazancıdır. Saf əqidəli, vətənpərvər, haqqı-nahaqqa verməyən insanların cəmiyyətdə özünə yer tapması, onun aparıcı qüvvəsinə çevrilməsi uğurlara gedən yolu yaxın edir və beləcə bir ailənin çətiri altından boy verənlər dövlətin, xalqın




O, Dünya kəmərinin sahibidir.

Məşqçi kimi də əlindən gələni edir ki, yetirmələri Azərbaycan idmanına öz töhfələrini versinlər. Məhz onun gərgin əməyi, tələbkarlığı sayəsində Abbasqulu Hümbətov, İbrahim Məmmədov, Kamal Şəmşiyev və Məhəmməd Məmmədov Avropa və dünya çempionatlarında üçrəngli bayrağımızı ucalara qaldırıb, himnimizi səsləndiriblər.

Deyir ki, bu gün bütün dünya Azərbaycanı idman ölkəsi kim tanıyır. Paytaxtımızda olduğu kimi regionlarda da tikilib istifadəyə verilən idman ocaqlarında gələcəyin çempionları yetişir.

Çünki möhtərəm Prezidentimiz idmanın ölkəmizdə ümummilli hərakata çevrilməsi üçün hər cür şərait yaradıb. İdman sağlamlıq, güc-qüvvət və sülh deməkdir.

# İDMAN UĞUR DEMƏKDİR

sevimlisinə çevrilir.

Onu idmansevərlər, peşəkarlar yaxşı tanıyırlar. Habilin uğur qazanmaq üçün hansı çətinliklərdən keçdiyinin şahidiyəm. Səbri, dözümü, gücü, ən ümdəsi, səmimiyyəti və qəlbindəki haqq sevgisi ilə polis idmançımız bu gün həm də Vətənə, xalqa xidmət edən, onun bayrağını ucalara qaldıran idmançılar yetişdirir. Onu idmana gətirən yollar heç də hamar olmayıb...

**Polis serjantı Habil Hümbətov** 1985-ci ildə dünyaya gəlib. Bakıdakı 177 nömrəli orta məktəbi bitirib. İdmanı ona qardaşları sevdirib. Adları boksun tarixinə qızıl hərflərlə yazılan Məhəmmədəlinin, Mayk Taysonun döyüşlərini izlədikcə boksa marağı artıb. Beləcə, bu idman növü onun gələcək arzularına qanad olub. Əməkdar məşqçi Nəriman Abdullayevdən boksun sirlərini öyrənib. 2003-cü ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olub. Əldə etdiyi uğurlar onu daha böyük qələbələrə ruhlandırıb. Lakin əlindən aldığı zədədən sonra bir müddət yarışlardan uzaq qalıb. "Zenit" idman mərkəzində məşqçilik fəaliyyətinə başlamaqla yanaşı, məşqlərini mütəmadi davam etdirib, bütün çətinliklərə rəğmən 2015-ci ildə BUDO Döyüş Növləri Federasiyasının keçirdiyi yarışlarda yüksək nailiyyətlər əldə edib.

Həmkarımız Əməkdar və beynəlxalq dərəcəli idman ustası, əməkdar məşqçi, 5-ci dan qara kəmər sahibi, Avropa və dünya çempionudur.

İdman həm də gəncləri zərərli vərdişlərdən uzaqlaşdırmaq üçün ən gözəl vasitədir. Biz çalışmalıyıq ki, idmanı həyat tərzimizə çevirək və "hər bir güclü idmançı həm də bir əsgərdir" devizi ilə sıralarımızı genişləndirək ki, torpaqlarımızın azadlığı uğrunda mücadiləmizdə qələbə bizim olsun.

Polis serjantı Habil Hümbətov DİN BMİ Həyat Əhəmiyyətli Obyektlərin Mühafizəsi üzrə Polis Alayında xidmət edir. Alay rəhbərliyinin və komandirlərinin etibarını və etimadını qazanıb.

Yeri gəlmişkən, çempion həmkarımız Polis Akademiyasının 3-cü kurs dinləyicisidir. İki övlad atasıdır.

*Hafiz Təmirov, polis mayoru*

# O KÖRPƏ DƏ POLİSİ SEVDİYİNİ DEDİ

**Hər kəs yayın gəlişini səbirsizliklə gözləyir. Çünki həm də dəniz mövsümü başlayır. Vətənimizin gəzməli-görməli yerlərini, zəngin təbiətini görmək istəyənlərlə yanaşı, istirahət üçün ölkə hüdudlarını seçmək istəyənlərin sayı da az deyil.**

İstirahət edəcəyin ölkəni, yeri, məkanı seçmək imkanı azaddır. İlk növbədə getdiyin ölkə, onun adət-ənənəsi, dini inancı və s. barədə məlumatlı olmalısan. Və əlbəttə ki, istirahət üçün ən vacib şərt büdcədir. Elə ölkəmizə gələn əcnəbilərlə söhbət zamanı onlar da bunu dedilər. Azərbaycanı seçdiklərini burdakı sabitliklə, əmin-amanlıqla əlaqələndirənlər çox oldu. Söhbət dənizdən düşəndə isə şimaldan gələn qonaqlarımız Xəzərimizə heyranlıqlarını gizlətmədilər. Xəzəri kim sevmir ki? O bizim sərvətimizdir və biz onu qorumalıyıq. Çimərlik mövsümü başlayanda Xəzərin sahilində insan əlindən tərpənmək olmur.

Bu yaxınlarda həftənin yorğunluğunu çıxarmaq üçün istirahət günündə yolumu dənizdən saldım. Xəzər insan dənizi ilə üz-üzə qalmışdı.

Uşaqlar üçün də dəniz maraqlı əyləncə yeridir. Bu arada diqqətimi ləpələrlə qaçdı-tutdu oynayan, çərpələng uçuran balaca bir uşaq çəkdi. Hardasa iki-üç yaşı olardı. Dünya-aləm vecinə deyildi və o bu gün vətənindən uzaq düşən, yad ellərə sığınmaq istəyənlərin övladlarından xoşbəxt idi.

Vaxtın necə keçməsindən xəbərim olmadı. Düzü, dənizdən ayrılmaq istəmirdim. Ancaq getməli idim. Birdən qulaqlarıma "mən anamı istəyirəm" deyib ağlayan uşaq səsi gəldi. Həmin uşaq idi. Toppuş, qırmızı yanaqlarını göz yaşları islatmışdı. O, ürkək nəzərlərlə ətrafına baxıb "anam hardadı" deyib hıçqırdı.

Onu sakitləşdirmək üçün ilk cəhdim uğursuz alındı. Deyəsən bu uşaq hamının yadından çıxmışdı və o bu dəfə "atamı istəyirəm" deyib ağlayırdı. Adını soruşdum. Arslandır dedi. Beləcə dostlaşdıq. Onu qucağıma alıb valideynlərini axtarmağa başladım. Yaxınlıqda xidmət aparan FHN-nin əməkdaşlarına da uşağın itməsi ilə bağlı məlumat verdim və onu axtaran olsa bu nömrəyə zəng etməsini xahiş etdim. Uşaq yenə də deyib-gülürdü və birdən diqqətlə üzümə baxıb dedi: "Sən polissən?" Güldüm və başımı əyərək: "hə",-dedim. O, "mənim atam da polisdir",- deyib boynumu qucaqladı...

Çox keçmədi ki, uşağın valideynləri tapıldı və onlar mənə təşəkkür etdilər. Bu hadisəni kənardan müşahidə edənlərin fikirlərini indi də xatırlayıram: "O körpə də bilir ki, dara düşəndə, kömək lazım olanda polisə üz tutmaq lazımdır. Kim öyrədibsə, bərəkallah"...

Bu, polis ömrüdür. Çalışırıq ki, tək xidmətdə yox, asudə vaxtlarımızda da hərəkətimizlə, davranışımızla hər kəsə örnək olaq, hamının köməyinə çataq.

*Ruslan Vəliyev, polis leytenantı*

# MARAQ DÜNYASI

### NAMƏLUM İNSAN NÖVÜNÜN QALIQLARI AŞKARLANIB

Filippində alimlər naməlum insan növünün qalıqlarını aşkar ediblər.

Filippinin Luson adasındakı Kalyao mağarasında üç şəxsə məxsus olmuş barmaq və bud sümüklərinin, həmçinin dişlərin qalıqları aşkar edilib. Onların yaşının təqribən 50-67 min il arası olduğu qeyd edilir.

Tədqiqatçıların rəyinə görə, tapılan qalıqların morfoloji əlamətlərinin məcmusu deməyə əsas verir ki, bu qalıqlar indiyədək məlum olan insan növlərinə, o cümlədən nə "Homo floresiensis"ə, nə də "Homo sapiens"ə aid deyil. Bu qalıqlar tamamilə yeni insan növünə aiddir və onun tapıldığı Luson adasının adına uyğun olaraq "Homo luzonensis" adlandırılması qərara alınıb.

Alimlərin rəyinə görə, yeni insan növünün tapılması Afrikadan kənarda onun müxtəlif növlərinin olduğunu deməyə əsas verir və təkamülün çox mürəkkəb xarakterini təsdiq edir.

### ŞİRİN İÇKİLƏRƏ VERGİ QOYULA BİLƏR

Avstraliyada Kvinslend Universitetinin ictimai səhiyyə məktəbinin hazırladığı tövsiyə xarakterli hesabata əsasən, tərkibində şəkər olan içkilərə 20 faizlik vergi tətbiq edilməsi hər il dövlət büdcəsinə əlavə 400 milyon Avstraliya dolları vəsait cəlb olunmasına və səhiyyə xərclərinin 20 milyon dollar azaldılmasına şərait yaradacaq.

Hesabatda deyilir: "Şəkərli içkilərə vergi qoyulması nəticəsində 2-ci tip diabet xəstəliyinə tutulanların sayının ildə 800 nəfər azalacağını müəyyənləşdirdik. Qarşıdakı 25 il ərzində ölkədə ölüm sayında hər il 1600 azalma olacaq, ürək-damar xəstəliklərinin insan ölümlərinə təsiri isə əhəmiyyətli şəkildə azalacaq".

### "ÖRDƏK-ROBOT" DÜYÜ ƏKİNİNƏ YARDIM EDİR

Yaponiyanın şimal-şərqində Yamaqata prefekturasındakı düyü tarlalarında alaq otlarını məhv etmək məqsədilə "ördək-robot"dan istifadə olunur.

"Nissan" avtomobil şirkətinin mütəxəssisləri tərəfindən hazırlanan robot iki vinti vasitəsilə su dolu torpağı qarışdıraraq alaq otlarının fotosintez prosesinə mane olur.

Təqribən 60 santimetr ölçüdə, kvadratşəkilli "ördək-robot" 1,5 kiloq-



ram ağırlığındadır. Bu robot Qlobal Mövqetəyinetmə Sistemindən (GPS) istifadə edərək düyü tarlasında hərəkət edir. Robotun yaradılmasında məqsəd düyü istehsalı zamanı pestisidlərdən istifadənin qarşısını almaqdır.

*Ruhiyyə Əliyeva*

# ÜÇ GÜN İDİ ATASINI AXTARIRDI...

**Atasından üç gün idi ki, bir səs-səmir yox idi. Rayon Mərkəzi Xəstəxanasında gözətçi işləyən, həm də quşçuluq təsərrüfatı ilə məşğul olduğuna görə vaxtaşırı Poladlı kəndində qaynı evində qalan Kamil İmamquliyevin mobil telefonuna zəng çatmırdı. Onu axtarmaq üçün həmin evə gedəndə gözləmədiyi mənzərə ilə qarşılaşdı. Yerdə qanlar içində qalmış atası artıq dünyasını dəyişmişdi. Evə göz gəzdirdikdə gördü ki, aləm biri-birinə qarışıb. Atasının öz əcəli ilə ölmədiyinə şəkk-şübhəsi qalmadı. Bu barədə dərhal Daxili İşlər Nazirliyinin "102 Xidməti-Zəng Mərkəzi"nə məlumat verdi.**



İyulun 22-də Gədəbəy rayon sakini, 60 yaşlı K.İmamquliyevin üzərində zorakılıq əlamətləri olan meyidinin aşkar edilməsi ilə əlaqədar rayon Prokurorluğu və Polis Şöbəsinin əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib. İstintaq-əməliyyat qrupu tərəfindən maddi sübutlar götürülüb, şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib. İlkin araşdırmalarla gözətçinin təqribən 3 gün əvvəl qətlə yetirilmə versiyası irəli sürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanılıb.

Hadisə yerinə baxış zamanı K.İmamquliyevin başından aldığı zərbə nəticəsində dünyasını dəyişdiyi məlum olub. Otaqdakı dağınıqlıq, içilmiş spirtli içkilərin boş şüşələri hadisədən əvvəl burada məclis qurulmasından, sərxoş vəziyyətdə sonradan yaranmış mübahisə zəminində sonuncunun öldürülməsi ilə nəticələndiyindən xəbər verirdi. Məhkəmə-tibb ekspertizasının rəyi də bu həqiqətə yaxın olan qənaəti gücləndirib. Belə ki, həmin rəydə K.İmamquliyevin bədəninin sağ tərəfindəki üç qabırğanın kənar təsirdən sınaraq qara ciyəri zədələməsi nəticəsində baş vermiş daxili qanaxma ölümə səbəb kimi göstərilib.

Görülmüş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətin Ağstafa rayon sakini, əvvəllər oğurluğa, sağlamlığa zərərvurmalara görə dəfələrlə məhkum olunmuş, tanınmamaq üçün dünyalarını dəyişmiş insanların adlarından istifadə etməklə bu dəfə məsuliyyətdən yayınacağını düşünən 39 yaşlı Anar Nuriyev tərəfindən törədilməsinə kifayət qədər əsaslı şübhələr yaranıb və onun barəsində axtarış elan edilib.



Daxil İşlər Nazirliyinin Baş Cinayət Axtarışı İdarəsi, Ağstafa və Gədəbəy Rayon Polis Şöbələrinin əməkdaşları tərəfindən həyata keçirilmiş intensiv əməliyyat-axtarış tədbirləri nəticəsində A.Nuriyev avqustun 1-i Ağstafa rayonunun Qırılı kəndi ərazisində şübhəli şəxs qismində saxlanılaraq istintaqa cəlb olunub. A.Nuriyev ifadəsində iyulun 19-dan 20-nə keçən gecə sərxoş halda olduğu zaman yaranmış mübahisə zəminində törətdiyi cinayət əməlini tam etiraf edib.

A.Nuriyev izi itirmək və ağır cinayəti gizlətmək məqsədilə görüntü xatirinə qapıya qıfıl asıb, əvvəllər birlikdə çoxlu belə içki məclislərini yola verdiyi gözətçinin həyətdəki quşlarını bağlamalara və kiçik qəfəslərə yığaraq hadisə yerini tərk edib. Yolda Gədəbəydəki istirahət mərkəzlərindən birində ofisiant işləyən Şəmkir rayon sakininin "VAZ-2106" markalı avtomobilinə sərnişin qismində əyləşib, övladının guya xəstə olmasını bəhanə edərək ev quşlarını sonuncuya 200 manata satıb.

Tədbirlərin davamı olaraq həmin avtomobil sahibinin şəxsiyyəti və yeri müəyyən edilib, oğurluq heyvanlar maddi sübut kimi götürülüb.

Hazırda cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

***O.Mansurzadə,***
***polis polkovniki***








**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun-15 sentyabr 2019-cu il tarixlərdə mövsüm üzrə qiymətləri**

**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-6 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**1 iyun - 15 sentyabr 2019-cu il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135 manat | 210 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 manat | |


Almaniyanın Hamburq limanında gömrük işçiləri ölkə tarixinə düşən külli miqdarda narkotik maddə ələ keçiriblər. Ələ keçirilən 4,5 ton kokainin 1 milyard dollar dəyərində olduğu bildirilir. Qeyd olunur ki, 200 çantaya yerləşdirdikləri narkotik maddəni cinayətkarlar Uruqvaydan Belçikaya aparmaq istəyiblər.

*****

***Rusiyada qısa müddətdə xeyli populyarlıq qazanan videoçarxın qəhrəmanı həbs olunub. Kremlin yaxınlığında çəkilən və sərxoş halda olan yol polisi serjantının hərəkətlərini əks etdirən kiçik videoçarx böyük qalmaqala səbəb olub.***




***Çoxları sosial şəbəkələrdə rekord sayda izlənilən videoçarxın qəhrəmanının həqiqətən polis işçisi olduğuna inanıblar. Lakin Rusiya DİN-in araşdırmasından sonra məlum olub ki, çəkiliş əvvəldən hazırlanıb və görüntülərdəki polis işçisi yox, peşəkar aktyordur.***

***Məşhur "Sovremennik" teatrının aktyoru olan Dmitri Smolev bu "roluna" görə, məhkəmə tərəfindən 8 sutkalıq həbs cəzasına məhkum olunub. Aktyor xırda xuliqanlıqda və qanunsuz olaraq polis forması daşımaqda ittiham edilib.***

***D.Smolev özü açıqlamasında bunun adi zarafat olduğunu və həmin rola bir bloqerin xahişilə çəkildiyini deyib. Lakin onun söylədikləri məhkəmə qərarını dəyişməyib. Xüsusilə də DİN rəhbərliyi həmin videoçarxın polis orqanlarının nüfuzuna xələl gətirdiyi qənaətindədir və aktyorun həbsi də məhz bununla əlaqələndirilir.***

*****

Kokain dolu konteynerdə gizlənən iki qaçaqmalçı polisə zəng edərək gizləndikləri ünvanı bildirib və həbs edilmək üçün sözün həqiqi mənasında yalvarıb. Ağılalmaz bu olay Belçikanın Anvers limanında baş verib. Cinayətkarların yüzlərlə kiloqramlıq kokainlə özlərini ələ vermələrinə səbəb isə dözülməz istilər olub. Belə ki, konteynerdə uzun zaman keçirən və istidə taqətdən düşən cinayətkarlar isti təndirə çevrilən konteynerdən xilas olmaq, ölümdən yaxa qurtarmaq üçün bu addımı atıblar.

Kokain dolu konteyner polisin iki saatlıq axtarışlarından sonra aşkar edilib.

*****

***Rusiya Dövlət Yol Polisi rəsmi saytında yollarda foto və videoregistratorların yerləşdiyi ərazilərin xəritəsini sınaq rejimində təqdim edib. Yeni interaktiv bölmə indi tamamlanma mərhələsindədir. Bunu hazırlamaqda məqsəd, yol iştirakçılarının yol kameralarının quraşdırıldığı yerlə bağlı daha yaxşı məlumatlandırmaqdır.***

*****

Ankara polisi sosial şəbəkələrdə qadınların dələduzluq yolu ilə əks cinsi maddi zərərə məruz qoymasına dair kütləvi "ovçu qız" əməliyyatına start verib. Əməliyyat prosesində 28-i qadın olmaqla, saxlanılan 99 şübhəlidən 8-i azad edilib. Onlardan 36-ı ciddi nəzarətə götürülüb, 3-ü ev dustaqlığına cəlb edilib, 52 nəfər isə həbs olunub. Əməliyyat-axtarış tədbirləri zərərçəkənlərin şikayətindən sonra həyata keçirilib.

***C.Natiq***

## İyulun 31-dən avqustun 6-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 160 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 62 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 128, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 8, borclu şəxs qismində axtarışda olan 51 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 18 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 19 nəfər ölmüş, 18 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 87 fakt müəyyən edilmişdir.

Baş Cinayət Axtarışı İdarəsinin rəisi Arzu Daşdəmirov və şəxsi heyəti Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Cinayət Axtarışı İdarəsinin rəisi Arzu Daşdəmirov və şəxsi heyəti DİN Maliyyə-Plan İdarəsinin rəisi Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Şəhər Baş Polis İdarəsinin şəxsi heyəti Baş İdarə rəisi Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Ramil Baloğlanov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə ŞBPİ-nin rəisi Əkbər İsmayılov və şəxsi heyəti Gədəbəy RPŞ-nin rəisi Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sadiq Gözəlov Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Su Nəqliyyatında Polis İdarəsinin rəisi Rövşən Eyyubov və şəxsi heyəti Mirqafar Seyidova əzizi
**RAFİQ RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nərimanov RPİ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yasamal RPİ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BNMİ Cənub Bölgəsində Regional Şöbəsinin rəisi İzzət Əsgərov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Quba RPŞ-nin rəisi Süleyman Neymətov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qazax RPŞ-nin rəisi Ədalət Əliyev və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şamaxı RPŞ-nin rəisi Şahin Mirzəyev və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Ramil Baloğlanova əzizi
**XANIM BALOĞLANOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şuşa RPŞ-nin rəisi İlqar Rüstəmli və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zərdab RPŞ-nin rəisi Azər Əfəndiyev və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Mehman Həşimova qardaşı
**VÜQAR HƏŞİMOVUN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.372
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00